# KÖNÜLLƏRDƏ YERİN VAR



*Qəzənfər KAZIMOV, professor*

***01 oktyabr Əli Rza Xələflinin ad günüdür. Mən də deyirəm: ƏLİ RZA, ad günün mübarək!***

**Müəllifdən.**

Elegiya janrının tarixi çox qədimdir. Hələ eradan əvvəl 1700-ci ildə şahzadənin vaxtsız ölümünə həsr olunmuş şumer elegiyaları məlumdur. İnsan özünü dərk etdiyi vaxtdan, qəlb yanğısı törədən, ruha əzab verən vaxtsız ölümləri bu cür yazılar vasitəsilə, qəlb ağrılarını sözə qarışdırmaqla dilə gətirə bilmişdir. Çünki vaxtsız ölümlərin kədərini daşımaq üçün insan qəlbi, insan şüuru bundan fərqli, bundan təsirli ayrı bir təskinlik yolu, təskinlik vasitəsi tapa bilmir.. Hər çətinliyə dözümlü olan bir insan kimi, şair Əli Rzanın dözümsüzlüyü də bu məqamda dilə gəlir, ağrılı sözlərini göz yaşları ilə qatıb-qarışdırır. Bu göz yaşları qeyri-ixtiyari olaraq çoxlarının gözündən süzülür:

Ruhumu ağlar qoydun, vədəsiz getdin, ey dost,
Bildinmi getməyinlə nə sitəm etdin, ey dost?!

Ruhun ağlar qalmağı insan üçün ağır və dəhşətlidir. Ruhun ağlar qalmağının qarşısını almaq çətindir. İnsan həyat üçün zəruri bütün qüvvəsini, iradəsini itirə bilir:

Gedişinlə apardın hünərimi, tabımı,
Varlığım tarmar oldu, qəddimi bükdün, ey dost!

Əli Rzanın qəlb evi səninlə zinətliydi,
Gedişinlə bu evi sökdün, dağıtdın, ey dost!

Xələflinin göz yaşı car oldu, selə döndü,
Amma heç bilmədin ki, necə qan etdin, ey dost!

Az qala, təbiətə asi olursan ki, bunu nə üçün yaratmısan və nə üçün insanları əliuzalı, ağlar qoyub vaxtsız, vədəsiz aparırsan. Könüllərdə yuva qura bilmiş bir insanı! Sevgiylə insanlığın üfüqlərində doğulan bir insanı! Ay kimi işıq salan bir insanı! İnsanlıq kahkeşanı səyahət yolu olan, Dostları ulduz-ulduz axtarıb tapan bir dostu! Dostluq bağında güllərin görkəzməsi olan, Dostluq sarayını sevgidən quran, Doğmalıq, səmimiyyət dövranı sürən, Həqiqətin yanında qürurla dayanan, Daim doğrunu soran, Düşüncəyə, fikirlərə saf toxum əkən bir vəfadaşı! Dostları daha çox yandıran bir də odur ki, bir şair, bir ziyalı, bir mədəni insan, bir həqiqi dost və həqiqət yolçusu kimi sevdiyimiz Vəliyulla Novruz qara ciyərinə daraşmış o mənhus xəstəliyin ucbatından bir ildən artıq bir müddətdə həkimlərin əlində ağır və dözülməz, dəhşətli müalicələr qəbul etməli oldu, əzablar, ağrılar içərisində yaşasa da, biz də, həkimlər də yaxşılaşacağına, ömrünün yaxşı günlərinin gələcəyinə, sağalacağına inanır və daim onu da inandırmağa çalışarkən işıqlı çırağın qəfil sönməsi, zərif ruhun əbədi ayrılığı hamını məyus etdi.

Vəli bir vaxtlar mənim gözəl tələbələrimdən olmuşdu. Lakin tələbəlikdən ayrıldıqdan sonra uzun müddət görməmişdim. Bir neçə il əvvəl yenidən ilk dəfə Yesentukidə görüşdük. Bu dəfə bir müəllim – tələbə kimi deyil, bir həmkar, bir müəllim, bir ziyalı kimi dostluğumuz başladı. Bir-iki il əvvəl Natənan klubunda 60 illiyini keçirdim. Əli Rza Xələfli, Qurban Bayramov, İsmayıl Kazımov, dostları, tələbə yoldaşları haqqında gözəl sözlər dedilər. Emosional, qayğılı, yanıqlı səsi ilə xeyli şerini əzbər söylədi. Vəli bizim müasir və klassik ədəbiyyatı, xarici ədəbiyyatın əlimizdə olan bütün mümkün nümunələrini, mən deyərdim ki, tam şəkildə hafizəsində toplamış, çox mükəmməl biliyə malik, hər kəslə hər bir faydalı filoloji kitab haqqında danışmağa, kiçik detalları belə incələməyə hazır olan bir şəxs idi. Ali məktəb auditoriyalarında səviyyəli dərs deməyə hazır bir şəxs idi. Amma regionda yaşayır, şagirdlərindən ayrılmırdı. Özü ol-masa da, neçə şagirdi bu zaman ərzində əməkdar müəllim olmuşdu. Əhvalı gözəl idi. Heç bir narahatlıq hiss olunmurdu. Birdən-birə bu mənhus xəstəlik namərd bir qüvvə kimi haradan qanadlandı? Dünyanın gərdişindən baş açmaq mümkünsüzdür. Dözdün, mərdliklə dözdün, dözülməz ağrılara mərdliklə sinə gərdin. Amma nə qədər olar, nə qədər mümkündür:

Çarpışırdın illərlə, vuruşurdun ölümlə,
Mərdanə ölümünlə əzabı yordun, ey dost!

Güləşdiyin dünyanın çevirdin kürəyini,
Dözümün, hünərinlə sən yerə vurdun, ey dost!

Özün getdin, amma dostlarına, ailənə nə sitəm etdiyini bilmədin. Könüllərdə qurduğun yuvanı boş qoydun. Onsuz da indiki halda, indiki əsrdə insana əzab verən, insanı oda tutan yaramaz bir vəziyyət insanlara hökm edir, qırğınlar törədən, dərd üstündən dərd gətirən pandemiya hökm edir, bu dağların, bu dərdlərin üstünə yeni dağ qoydun, qəlbləri ütdün, yandırdın. Əli Rzanın dediyi kimi, millətin qəlbində olan Araz ağrılarına sənsizlik ağrılarını da qatdın:

Onsuz da ürəyimdən dərdli Araz axırdı,
Sən də bu dərd çayına qəm seli qatdın, ey dost!

Sən özün də bu dərdlərin içində idin. Bu dərdlər bir ümman kimi səni öz dalğaları adasına alıb boğur, anlamaq, xilas olmaq üçün hər tərəfə əl-qol atırdın, nəticə görünmürdü:

Yurdun dərd dalğaları hər yandan döydü səni,
Anlamaq ümmanına özünü atdın, ey dost!

Özün də gördün ki, bu zəmanə düzələn deyil. Bu zəmanədə heç nə yerində deyil. Əlində ixtiyar olanlar, insanlara, insanlığa hökm edənlər atın qabağına ət, itin qabağına ot qoyanlardır:

Ata ət payı verən, itə də ot göstərən
Dünyanın gərdişinə doyunca güldün, ey dost!

Vətən uğrunda həyatını qurban verənləri, şəhidləri görəndə qəm yolun tutdun, bir an üzün gülmədi:

Üzün gülmədi bir an şəhidliyin bağında,
Dərdli güllər arası qəm yolu tutdun, ey dost!

Belə də demək olar: Sən Vətənin dərdlərini, Vətənə gələn bəlaları, qəmləri satın alıb, əvəzində öz canını vaxtsız bağışladın:

Qəmlərin bazarına kimsə gəlməz dərd ala,
Dərd verib can alana sən canı verdin, ey dost.

Sən insanlıq üfüqlərində sevgi ilə doğulmuşdun. Bu qarışıq, dolaşıq dünyada söz bilənlərin dili ilə hər zaman yalnız doğru sözə dəyər verdin.

Əbədi yaşamağa təskinlik nümunəsi, nişanıydın. Gedən gəlməz, şübhəsizdir, amma sənin kimilər nə qədər gəlsə, sevinərik, "nə yaxşı gəldin" deyərdik. Çünki yolun daim insanlıq kəhkaşanı olub. Odur ki sözlərinlə yaşayacaqsan və daim bizimləsən. Çünki bu yalan dünyada gerçəklik, doğruluq nümunəsi idin.

Sən fikirlərə, düşüncələrə varlığın müddətində saf toxumlar əkdin. Ona görə də nəsillərin, hər bir yeni nəslin yaddaşında yaşayacaqsan. Yüzlərlə ürəklərdə yuva qurmusan, könül evi yaratmısan:

Yüz evi olan var ki, bir könül evi yoxdur,
Yüz könül evini sən könüldən tikdin, ey dost!

Verdiyimiz bu beytlərdə Vəliyulla Novruzun mənəvi dünyası, tanışların, dostların qəlbində qurduğu sarsılmaz dostluq sarayı, övladlarına, insana ölümsüz məhəbbət sarayı, bu dünyanın dərd, qəm yükünə dözüm qüdrəti, təbiətin yaxşılıq adına insan əli ilə verdiyi əzablara necə sinə gərdiyi və vaxtsız gələn ölümlə çarpışmada necə mətanətlə duruş gətirə bildiyi, dostlarının qəlbindən keçən yanğının, dözülməz ağrı-acıların fonunda təsirli bir dil ilə, şeir oxuyarkən Vəliyullanın öz qəlbindən qopub gələn yanğının, acıların, kədərin və hərdən xoş mərtəbədə parlayan duyğuların, sevincin od saçan şərarələri ilə birgə ifadə olunmuşdur. Burda şairin – Əli Rzanın özünün də, Mənim də, Qulu Məhərrəmlinin də, İsmayıl Kazımın da, Qurbanın da, İslamın da, şair dostları Meyxoşun da, Teymurun da, Əfrayımın, Bilalın, Ədalətin də, onu daim əzizləyən, bütün varlığı ilə qorumağa çalışan həyat yoldaşı Mədinə xanımın da, candan əziz sevdiyi oğlunun, sevə-sevə əzizlədiyi qızları Ayselin, Səadətin də, bütün onu sevən, onun sevdiyi qohumların, dostların, adını bilmədiyim neçə-neçə adamın da, daim hörmətini saxladığı, qulluğunda durduğu kənd əhlinin, el ağsaqqallarının da sevgi və həyəcanları, can yanğısı, ürək çırpıntıları var.

Vəliyulla Novruzun poetik yaradıcılığı daim oxucuları cəb edib, poeziyası haqqında Qurban Bayramov, Vaqif Yusifli, İslam Qəribli, İsmayıl Kazımov, Aslan Salmansoy, İsmixan müəllim, Bilal Alarlı, Meyxoş və başqaları səmimi fikirlər söyləmiş, yaradıcılığının ədəbi-estetik təhlili ilə məşğul olmuşlar. Yaradıcılığı məni də dilləndirmiş, 60 illiyini keçirdiyim ədəbi gecədə ümumi yaradıcılığı, həyat və övlad sevgisi, payız gözəlliklərinə vurğunluğu, ata, ana məhəbbəti barədə təsirli, hikmətamiz misralarını söyləmişəm. Nə etmək olar? Dostum, gözəl ədəbiyyatşünas alim Zaman Əsgərlinin vaxtsız vəfatı ilə əlaqədar dediyim kimi, bu dolanan, fırlanan çarx daim öz əməlləri ilə yaratdıqlarına da peşman edir, özünü də. Ailəsi, övladları onu, o öz ailə və övladlarını nə qədər sevirdi?! Nə qədər böyük səmimiyyət və etika sahibi idi?!

Əli Rza Xələfli hələ bu qəsidədən əvvəl hamımızın, Vəliyullanı tanıyan bütün dostlarının can yanğısını publisistik dil ilə ifadə etmişdir: "Dünyanın ən ağır yazılarını yazmaq, bəlkə də, mənim qismətimə düşüb. Ağrıya-ağrıya, yana-yana yazmaq kimə asan olar ki?!"

Yenə yazır: "Qəfil göy üzünə baxırsan, gecənin aydınlığında görünən ulduzlar işığı ilə sənə təskinlik olur. Səhərin açılacağına, günəşin doğacağına inanırsan. Amma axıb gedən bir ulduzun qayıdacağına, təzədən bərq vuracağınna, işıq salacağına inana bilmirsən.

İnsanlar da Yer üzünün ulduzlarıdır. Göydəki ulduzlar Günəşin zərrələri olduqları kimi, Yerdəki insanlar da həyatın zərrələridir".

Əli Rza yenə yazır: "Nədənsə, mənə elə gəlir ki, Vəliyulla Novruzun işığı alayıdır. Cismən gözü görməyənin də ruhuna işıq sala bilirdi, çünki onun işığı səsindən, sözündən keçib gəlirdi... Vəliyullanın odlu, alovlu şeirlərini oxuyan hər kəsin, hətta həyata, yaşamağa inamı üzülmüş olan hər kəsin gücü on qat artır. İnsan inamına qayıdır. ...onun təbiət və insan münasibətlərini əks etdirən şeirlərinin əvəzi yoxdur".

Əli Rza davam edir: "Fanatik, mövhumatçı, dindar olmasa da, Allahı təbiətin və insanlığın harmoniya sahibi kimi qavrayırdı. Allah onun mənəvi dünyasında nizam sahibi idi, bütün nizamları, ahəngləri, harmoniyaları, bir sözlə, həyatın varlığını Allahdan keçən düşüncə anlamı kimi qavrayırdı. Çünki özü də təbiətən saflıq timsalı idi".

Yenə: "Elə bil ki, Allah onu yaratmışdı ki, başqalarına görk olsun. Başqaları ona baxıb görsünlər ki, insanı necə sevmək olar, həyatı necə dəyərləndirmək olar? Vəliyulla Novruz öz poeziyası, çap etdirdiyi şeir kitabları ilə yanaşı, tənqidi, publisistik yazılar da yazır, ədəbi tənqidlə də məşğul olurdu. Bu sahədə də son dərəcə səmimi idi. Əli Rzanın dediyi kimi, "Onun qəlbinin, ruhunun titrəyişləri az qala elə poeziyası kimi, ədəbi-tənqidi yazılarında da üzə çıxırdı".

Vəliyulla, sən həqiqi həyat adamı idin, həyatın, yaranışın bütün sirləri ilə tanış idin.

*Deyirdin: Allahımın bu dünyada Hökmü böyük, səbri çoxdur; Deyirdin: Ömrümüzü, günümüzü Sevinc donlu kədər biçir; Deyirdni: Dərədə sürünən duman kimiyəm; Deyirdin: Tükdən asılı qalan güman kimiyəm; Deyirdin: Zaman da dən kimi üyüdür məni; Deyirdin: Kül altda közərən ocaq kimiyəm; Deyirdin: Düşmüşəm yolların enişinə mən, Hələ yoxuşunu çıxa bilmirəm; Deyirdin: Ümidlərim göyərmədi, Arzularım qaldı boyat; Deyirdin: Düzlərimdə gül-çiçək, Yamacımda dərd bitər; Deyirdin: Həyat qocaltdı məni, Dərdlərim cavan qalıb; Deyirdin: Saralıb tökülən yarpaq kimiyəm; Kədərim göyərib dərd gətiribdi; Sığınmışam ümidimə, Tanrının xəbəri yoxdu; Deyirdi ki, Bu kələkbaz dünyadan Baş açmaq çox çətindi...*

Bir də deyirdin ki, Qəfil qonaq gələn ölüm gözəldi.

Son bir ili, bəlkə də il yarımı nə qədər üzüntülü, əzablı həyat keçirdin. Qara ciyərdə mənhus xəstəliklə mübarizə üçün həkimlər hansı müalicə üsullarına əl atmadılar?! Bu qədər möhkəm iradə sahibi təsəvvür etmirəm. Bədənində iynə vurmağa yer tapmırdılar. Əksər günlər sistemə qoşulu olardın. Deyirdim və güman edirdim ki, həkimlərin bu qədər tədbirləri, müalicə üsulları yaxşılığa aparır. Kim nə bilir ki, kim nə çəkir? Kim nə bilir ki, kəndir harada qırılacaq?! Hər həftə zəng edib əhvalını soruşar, ürək-dirək verərdim.

18-i günü adəti üzrə yenə Sənə zəng elədim. Telefon xeyli çağırsa da, səs gəlmədi. "Yəqin, huşa gedib, dincəlir", - deyə düşündüm... Həmin günün axşamı, ağlıma gətirmədən, bunun əbədi yuxu olduğunu bildikdə hədsiz sarsıntılar keçirdim.

Əbədi yuxu! Dünya başdan-başa yalan üzərində qurulub. Qəfil qonaq gələn ölüm gözəldi. - Bircə bu arzusu çin oldu. Vəliyulla Novruz! Sən deyəndi: Ömrümüzü, günümüzü Sevinc donlu kədər biçir? Və: Bu kələkbaz dünyadan Baş açmaq çox çətindi...

Mən bu yazını Əli Rza Xələfliyə istinadən ona görə o qədər qəlb ağrısı və yanğı ilə yazdım ki, Əli Rzanın keçirdiyi qəlb ağrıları və ürək yanğısı bizim hamımımızda var, Vəliyulla Novruzu tanıyan hər kəsdə.

Vəliyulla, bu gedis, sənin bu qəfil gedişin hamıya, hamımıza aiddir. Bir az geci-tezi var. Amma təskinlik orasındadır ki, könüllərdə möhkəm yerin var, yuvan var, könüllərdə yaşayırsan və yaşayacaqsan.

*19.09.21*